# V-IX SİNİFLƏRDƏ ƏDƏBİYYATIN TƏDRİSİ PROSESİNDƏ İNSAN HÜQUQLARI ÜZRƏ APARILAN İŞLƏR

**Sevda İsgəndərova,**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
*ARTİ*
E-mail: sevda.isgenderova.64@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər**: ədəbiyyat, vətəndaş hüquqları, ədəbiyyat dərsləri, tərbiyəvi işlər, hüquq və vəzifələr*
***Ключевые слова:** литература, права граждан, уроки литературы, воспитательные работы, права и обязанности*
***Keywords:** literature, citizens' rights, literature lessons, educational work, rights and duties*

Yeniyetmələrin fəal vətəndaşlar kimi yetişmələrində, insan hüquqlarına hörmətli yanaşmalarında, öz hüquq və vəzifələrini aydın şəkildə dərk etmələrində, uşaq hüquqları və vəzifələri ilə yaxından tanış olmalarında digər fənlərlə yanaşı ümumtəhsil məktəblərinin V-IX siniflərində tədris olunan ədəbiyyat fənni də özünəməxsus rol oynayır.

Bu imkanlar ədəbiyyat fənninin ilk dəfə keçilməyə başladığı V sinifdən açılır. Başqa fənlərdən fərqli olaraq ədəbiyyat dərslərində şagirdlər insan hüquqları və onların yerinə yetirməli olduqları vəzifələr barədə təsəvvürlərə bədii əsərlərin nümunəsində, bədii obrazların timsalında, roman, povest, pyes, hekayə, şeir, poema qəhrəmanlarının düşüncə, hərəkət və əməlləri ilə tanış olmaq, onları təhlil süzgəcindən keçirməklə yiyələnirlər.

V sinfin ədəbiyyat dərsliyində oxuyuruq: "Ədəbiyyatın başlıca mövzusu insan, onun həyatı, düşüncələri ilə bağlı olur. Yazıçı nədən danışırsa, danışsın, nəyi təsvir edirsə etsin, ona insanın münasibətini ifadə edir" (1, 10).

Ədəbiyyat dərsliklərini araşdırmalardan görünür ki, bədii əsərlərdə, dərsliklərə salınmış bədii mətnlərdə insan, o cümlədən uşaq hüquqlarına da münasibət bildirilir. Belə ki, V sinfin ədəbiyyat dərsliyində xüsusi bölmə var. Həmin bölmə "Müharibə və insan haqqı" adlanır (1, 77). Bu bölmədə başlıca olaraq müharibə və onun törətdiyi bəlalardan, Vətən sevgisi, doğma yurdun qorunmasının hər bir vətəndaşın müqəddəs borcu olması diqqət mərkəzinə gətirilsə də insan hüquqlarından da söz açılır, dünyada yaşayan insanların hər birinin azad, təhlükəsiz, dinc yaşamağa hüququ olması xüsusi vurğulanır, bu hüquqları sərvət, özgə torpaqlarını işğal etmək hərisliyi ilə pozanlar, ölkələr lənətlənir.

"Müharibə və insan haqqı" bölməsində Xəlil Rza Ulutürkün "Oğul həsrəti"; şeiri. Maqsud İbrahimbəyovun "Püstə ağacı"; Elçin Hüseynbəylinin "Firuzə qaşlı xəncər" hekayəsi özünə yer almışdır.

Xəlil Rza Ulutürkün "Oğul həsrəti" eksperimentə cəlb edilmiş V sinif şagirdlərinə güclü təsir göstərmiş, onların Vətənpərvərlik, düşmənə nifrət hisslərini alovlandırmışdır.

*Məqbərənə gül düzərəm,*
*Gülüm, Təbrizim, Təbrizim!*
*Doğrudanmı səni tapdı*
*Ölüm, Təbrizim, Təbrizim!*
*Getmə, öpüm izlərindən,*
*Bükülməyən dizlərindən,*
*Qoy saçılsın gözlərindən,*
*Selim, Təbrizim, Təbrizim! (1, 78-79).*

Şeirlə tanış olan şagirdlər öz münasibətlərini bildirirlər: "Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları Konvensiyası"nda da, müxtəlif ölkələrin Konstitusiyasında da, Azərbaycan respublikasının Əsas qanununda da, elə düşmənin öz Konstitusiyasında da insanın yaşamaq, fəaliyyət göstərmək hüququ təsbit olunub. Fəqət müharibələr törədən bəzi başqa ölkələr də, Ermənistan dövləti də insan hüquqlarına məhəl qoymur, işğalçılıq siyasəti ilə məşğul olurlar. "Oğul həsrəti" şeirində xalq şairi Xəlil Rza Ulu-

türkün iztirabları, qəlb ağrıları, fəryadları eşidilir. Təbriz Xəlilbəyli şairin oğludur. Erməni əsgərləri tərəfindən öldürülmüşdür. Xəlil Rza Ulutürk bir tərəfdən oğlunun Vətən, doğma Azərbaycanımızın, torpaqlarımızın müdafiəsi uğrunda həlak olmasından qürur hissi keçirir. Bu onun vətəndaşlıq mövqeyidir. Digər tərəfdən atadır, oğul itkisi onu yandırıb, yaxır".

Elçin Hüseynbəylinin "Firuzə qaşlı xəncər" hekayəsi Xocalıda törədilən soyqırımından danışır. İnsan hüquqlarını qəddarlıqla, vəhşicəsinə tapdalayan ermənilərin azğınlığı beşincilərdə ermənilərə qarşı hədsiz nifrət hissi yaradır.

Hekayədən parça: "Ermənilər əsirləri (*Xocalı sakinlərini – S.İ.*) çalaya atdılar, üstlərinə su tökdülər. arvad, uşağın ah-naləsi, yalvarışları göyə qalxdı. Düşmənlər onları diri-diri basdırmışdılar, üstlərinə də suyu ona görə tökmüşdülər ki, tez donub ölsünlər" (1, 94-95).

Müəllim beynəlxalq Bəyannamə və Konvensiyaları – "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ni (ÜİHB-ə), "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyasını yada salır. Əsirlərlə hərbiçilərin davranılmasına dair beynəlxalq sənədə müraciət edir, vətəndaşların öz ölkələrində necə bir vəhşiliklərlə rastlaşdığını, dünya ölkələrinin isə, bu soyqırımına biganə qaldıqlarını diqqətə çatdırır.

Müəllim sinfə müraciətlə:

-Siz bir vəhşiliyin dərəcəsinə bir baxın: "Əsirləri soyundurdular.

-Komandir, güllələyək?

-Yox, gülləni onlara sərf etməyin, lazımımız olacaq.

-Bəlkə yandıraq?

-Axmaq! – deyə saqqallı onun üstünə çımxırdı – benzin heyif deyil?! Atın çalaya, üstlərinə də su tökün... qoy donsunlar. Çalaları da torpaqla örtün".

Müəllim:

-Haqqdan, ədalətdən, insan hüquqlarından danışan, özlərini dünyaya məzlum, əzilən millət kimi tanıtmaq istəyən ermənilərin əsil siması budur – faşist xisləti, vəhşilik, barbarlıq, qəddarlıq, amansızlıq...

Əli Səmədin VI sinfin ədəbiyyat dərsliyinə salınmış "Qanlı bənövşə" hekayəsi də məqalədə nəzərdən keçirdiyimiz problem baxımından zəngin material verir. əsərdə ermənilərin azərbaycanlıları əsrlərlə yaşadıqları dədə-baba yurdlarından – Qərbi Azərbaycandan necə vəhşilik və amansızlıqla qovmaları, evlərini yandırmaları təsvir olunur. İnsan hüquqları tələb edir ki, harada yaşamağından asılı olmayaraq insanlar millətinə, dininə, irqinə, cinsinə görə bir-birinə fərq qoymasınlar, dinc yanaşı yaşasınlar: "Ata ...kolun dibində bir qaraltı gördü. Yaxın gəldi. Bu, qız uşağının cəsədi idi. şaxtadan qaralıb bozarmış bu cəsəd onun ciyərparası olan Zərif idi. qız al qanın içindəydi. Köksündə neçə-neçə güllə yarası vardı. sıxılmış ovcunda isə qanlı bənövşə çiçəkləri!" (2, 150).

VII sinfin ədəbiyyat dərsliyindəki Səməd Vurğunun "Vətən sevgisi, qəhrəmanlıq səhifələri" bölməsinə daxil olan "Azərbaycan", Bəxtiyar Vahabzadənin "Vətəndaş", Zahid Xəlilin "Sonuncu güllə", Mikayıl Rzaquluzadənin "Babəkin andı"; VIII sinfin ədəbiyyat dərsliyindəki Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından alınmış "Sultan Səncər və qarı", Məhəmməd Füzulinin "Padşahi-mülk", şeiri; Əbdürrəhim bəy Haqverdiyevin "Mirzə Səfər" hekayəsi də insan hüquqları barədə şagirdlərlə ətraflı söhbətlərin aparılmasına və müxtəlif dövrlərdə insanların öz hüquqlarına hansı dərəcədə sahib olmaları və hazırda Azərbaycan Respublika-sında onlar öz hüquqlarından və azadlıqlarından (təhsil hüququ, istirahət hüququ, əmək hüququ, yaşayış sahəsinə malik olmaq hüququ, öz şərəf və ləyaqətini qorumaq hüququ, söz və vicdan azadlığına malik olmaq hüququ və s.) necə faydalanmaları ilə bağlı müqayisələr aparmaq imkanı qazanırlar.

Şagirdlərə aydın olur ki, müəyyən dövrlər olub ki, insanlar, xüsusən kasıb təbəqəlilər qul, kölə vəziyyətində olmaqla heç bir hüquqa malik deyildilər. şərəf və ləyaqətləri təhqir olunurdu, təhsil ala bilmirdilər, sözlərini, fikirlərini çatdıra bilmirdilər, çoxlarının yaşayış sahəsi yox idi. Xüsusən qadınlar çox-çox əsrlər hüquqsuz olublar, zorla ərə veriliblər, cəmiyyətdə sərbəst gəzib-dolana bilməyiblər, evdə bir növ əsir olublar. Vəzifələri yalnız uşaq doğmaq, onu saxlamaq və ərə xidmətdən ibarət olub.

Eksperimentə cəlb edilmiş VIII siniflərdə Nizami Gəncəvinin "Sultan Səncər və qarı" mənzuməsi təhlilə cəlb edilmişdir. Diqqət edək:

*Zülm edib bir qarıya çox uddurmuşdular*
*ona qan,*

*O da Sultan Səncərin tutaraq yaxasından*
*Dedi ki: - Səndə insaf az görmüşəm, qulaq as!*
*Səndən gördüyüm zülüm əsla hesaba sığmaz.*
*Bir kefli darğa gəlib evimdə məni söydü,*
*Salıb təpik altına doyunca döydü, döydü"*
(4, 31).

Döyülən qadının təqsiri nə olub? Demə, bir gecə qarının yaşadığı küçədə kimi isə vurub öldürüb. Darğa qatili tapa bilmədiyindən qarını məcbur edir ki, qatilin kim olduğunu ona desin. Qarı nə qədər and-aman edir ki, xəbəri yoxdur, bilmir, darğa əl çəkmir. Onun saçlarından yapışıb evdən çölə sürüyür, camaatın içində onu söyüb təhqir edir.

Qarı Sultan Səncərdən soruşur:

*-Darğanın sərxoşluğu olmuş bu işə maya,*
*Bəs niyə mən yazığı salır qısma-boğmaya?*
*Vilayəti soyarkən padşahın adamları,*
*Cinayətkar olarmı bunda məgər bir qarı?*
(4, 31).

Qarı bir növ Sultan Səncərə dər verir. Bildirir ki, darğaların özbaşınalığı onun nüfuzuna xələl gətirir, onlar padşahın nümayəndələridir, nə qədər naqis işlər tutsalar, padşahın ayağına yazılacaq:

*Padşah öz ölkəsini görmək istəsə abad,*
*Etsin rəiyyətini gərək məsud, gərək şad*
(4, 32).

Şagirdlər Nizami Gəncəvinin "Sultan Səncər və qarı" mənzuməsi ilə tanış olmaq əsasında bu qənaətə gəlirlər ki, qanunları imzalamaq, hüquqları elan etmək hələ azdır, qanunların icra vəziyyətinə nəzarət edilməli, hüquqların həyata keçirilməsinə təminat verilməlidir. bu fikri söyləməklə onlar Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və göstərirlər ki, ölkəmizin Əsas Qanununda vətəndaşların əsas hüquqları təsbit olunmaqla yanaşı onlardan istifadə olunmasının mümkünlüyü ilə bağlı təminat verilmişdir. Qanunları pozanlar cəzalandırıldığı kimi, vətəndaşların hüquqlarını pozanlar da layiqli cəzalarını alırlar.

IX sinfin ədəbiyyat dərsliyində (5) verilmiş Əhməd Cavadın "Azərbaycan bayrağına", Almaz İldırımın "Əsir Azərbaycanım", Süleyman Rüstəmin "Təbrizim", Məhəmməhhüseyn Şəhriyarın "Heydərbabaya salam", Əli Kərimin "Qaytar ana borcunu", Xəlil Rza Ulutürkün "Qaytar mənim qüdrətimi, Azərbaycan" əsərlərinin imkanlarından da bəhrələnib insan hüquqlarına dair söz açmaq, məktəblilərdə insan hüquqlarına hörmət hissləri formalaşdırmaq olar.

**Problemin aktuallığı.** İnsan hüquqları ilə bağlı yeniyetmələr arasında məqsədyönlü, sistemli və fasiləsiz işlərin aparılması vacibdir.

**Problemin yeniliyi.** Ümumtəhsil məktəblərinin yuxarı siniflərdə ədəbiyyatın tədrisi prosesində insan hüquqları üzrə aparılan işlərin səmərəli yolları diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ilə tanışlıq nəticəsində ədəbiyyat fənnin tədrisi zamanı insan hüquqları ilə bağlı aparılacaq işlər barədə müəllimlər zəruri məlumat ala bilərlər.

## ƏDƏBİYYAT

1. Əliyev S.. Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2016, 208 s.
2. Süleymanova A., Bağırova T. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Təhsil, 2015, 240 s.
3. Əliyev S., Həsənov B., Mustafayeva A., Məmmədova S. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2016, 240 s.
4. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik / Müəlliflər: N. Cəfərov, N. Araslı, S. Hüseynoğlu. Bakı: Xəzər, 2013. 224 s.
5. Həsənov B.. Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə. Müəllim üçün metodik vəsait. Bakı, 2016, 224 s.

**С.Х. Искендерова**

**РАБОТЫ, ПРОВОДИМЫЕ ПО ПРАВАМ ЧЕЛОВЕКА В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ В V-IX КЛАССАХ**

***РЕЗЮМЕ***

Наряду с другими предметами, Литература, преподаваемая в V-IX классах общеобразователь-ных школ, также играет особую роль в воспитании подростков как активных граждан, в уважении ими прав человека, четком осознании ими своих прав и обязанностей, ознакомления их с правами де-тей и их обязанностями.

В результате ознакомления с данной статьей учителя могут получить необходимую информацию о проведении необходимых работ по изучению прав человека во время преподавания литературы.

**S.Kh. Iskenderov**

**WORKS PERFORMED ON HUMAN RIGHTS IN THE PROCESS OF LITERATURE TEACHING IN V-IX CLASSES**

***SUMMARY***

Along with other subjects, the literature taught in V-IX classes of general education schools also plays a special role in educating adolescents as active citizens, in respecting their human rights, clearly understanding their rights and responsibilities, familiarizing them with the rights of children and their duties. As a result of acquaintance with this article, teachers can obtain the necessary information about carrying out the necessary work on studying human rights while teaching literature.

**Redaksiyaya daxil olub:** 26.02.2018